# 28 May - Respublika günüdür

Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA



*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
Heydər Əliyev

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 10 (798) | 22 May 2015-ci il | Qiymәti 50 qəpik

*Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı*

## Prezident İlham Əliyev mayın 21-də Bakı Sərgi Mərkəzində World Food Azerbaijan-2015" XXI Azərbaycan Beynəlxalq qida sənayesi və "Caspian Agro-2015" IX Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri ilə tanış olub






## Azərbaycan Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionu ətrafında inşa olunan yol-nəqliyyat infrastrukturunun açılışında iştirak edib

# Heydər Əliyevin xatirəsi həmişə yad edilir



*Dünya azərbaycanlılarının sevimli, qəhrəman oğlu, XX əsrin dahi şəxsiyyəti ulu öndər Heydər Əliyevin xatirəsi həmişə qəlblərdə yaşamış və bundan sonra da yaşayacaqdır. Onun doğum günü xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə hər il yad edilir.*

*Həmişə olduğu kimi, bu ilin may ayında Ağstafada ulu öndərin ad günü böyük təntənə ilə qeyd edilmiş, onun xarirəsinə həsr olunmuş gül bayramı keçirilmişdir. Tədbirdən əvvəl ağstafalılar ulu öndərin adını daşıyan mərkəzin qarşısında əzəmətlə ucalan abidənin önünə tər çiçək dəstələri qoymuşlar.*

# Ağstafada gül və kitab bayramı









***Respublikamızın hər bir guşəsində olduğu kimi, rayonumuzda da ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü böyük təntənə ilə qeyd edilmişdir. Ulu öndərin adını daşıyan Mərkəzin önündə keçirilən bayram təntənələri rayon rəhbərlərinin və şəhər ictimaiyyəti nümayəndələrinin dahi rəhbərə sonsuz məhəbbətinin nümayişi ilə başlamışdır. Buraya toplaşmış insan axını dəstə-dəstə xalqın unudulmaz dostu Heydər Əliyevin əzəmətli heykəli önünə gələrək buraya tər çiçək dəstələri düzmüş, ulu öndərin xatirəsinə ehtiramla baş əyərək onu hörmətlə yad etmişlər.***

Ulu öndərin əzəmətli heykəlini ziyarətdən sonra yubiley iştirakçıları Heydər Əliyev Mərkəzinin qarşısında sərgilənmiş gül bayramına qatılmışlar. Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə təşkil olunmuş gül bayramında cürbəcür gül-çiçəklər, müxtəlif gül dibçəkləri nümayiş etdirilmişdir. Buraya gətirilən rəngbərəng çiçəklər, göz oxşayan güllər sanki ucsuz-bucaqsız bir çəmənzarı xatırladırdı. Gül bayramının iştirakçıları bu gözəl mənzərəyə heyranlıqla tamaşa edirdilər.





Dahi rəhbərimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş kitab bayramı da maraqla qarşılanmışdır. Rəngbərəng gül-çiçəklərin arasında sərgilənmiş nadir kitablar sanki qiymətli bir hədiyyə kimi al-əlvan tər güllərə bürünmüşdü.

Kitab bayramında ən çox diqqəti cəlb edən ulu öndərin müxtəlif illərdə çap olunmuş dəyərli kitabları idi. İkinci dəfə öz müstəqilliyinə qovuşmuş doğma Azərbaycanın ən etibarlı qarantı olan Heydər Əliyevin müstəqilliyimizin ilk illərində apardığı daxili və xarici siyasət, dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi naminə həyata keçirilən mühüm tədbirlər bu kitablarda öz əksini tapmışdır. Bundan əlavə ulu öndərin həyat və yaradıcılığından, Azərbaycanın xoşbəxt gələcəyinə aid proqram və vəzifələrdən bəhs edən nadir kitablar, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı respublika prezidenti cənab İlham Əliyevin son illərdə çap edilmiş əsərləri kitab sərgisində yer almışdır. Kitab bayramında həmçinin Azərbaycan ədəbiyyatı klassiklərinin, müasir şair və yazıçıların və yerli yazarların əsərləri nümayiş etdirilmişdir.

Həmin gün Heydər Əliyev Mərkəzində Böyük Vətən müharibəsində tarixi Qələbənin 70 illiyinə həsr olunmuş yubiley tədbiri də keçirilmişdir. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev yubiley tədbirində iştirak edən müharibə veteranları qarşısında çıxış etmişdir. M. Quliyev faşist Almaniyası üzərində keçmiş sovet qoşunlarının tarixi qələbəsindən, bu qələbədə Azərbaycan oğullarının da misilsiz hünərindən danışmış, qanlı cəbhələrdə canlarını vətən torpağı uğrunda qurban vermiş həmvətənlərimizin, şanlı Qələbədən keçən 70 il ərzində dünyasını dəyişmiş veteranlarımızın xatirəsini hörmətlə yad etmişdir. Həmçinin qeyd olunmuşdur ki, həmişə dövlət tərəfindən müharibə veteranlarına və şəhid ailələrinə lazımi diqqət və qayğı göstərilmişdir. Bu qayğı və diqqət indi də yüksək səviyyədə davam edir.

Şirniyyatlı çay süfrəsi ətrafında keçirilən musiqili tədbirdə sağ qalan müharibə veteranlarına "Böyük Qələbənin 70 illiyi" yubiley medalları təqdim olunmuşdur.









# İlk Avropa oyunlarının məşəli Ağstafada alovlandı








18 May-bazar ertəsi Ağstafa torpağında əsl toy-bayramdır. Bütün ağstafalılar ilk Avropa Oyunlarının məşəlini qarşılamaq üçün şəhərin başdan-başa bəzədilmiş küçələrinə çıxmışdılar.

Budur, gözlənilən an gəlib çatır. Müqəddəs "Atəşgah"dan alovlanan Olimpiya məşəli Heydər Əliyev prospektinin başlanğıcında təntənə ilə ağstafalılara təqdim olunur. Məşəli karate üzrə beynəlxalq yarışın mükafatçısı Namiq Həsənov qəbul edir. Rayonun tanınmış idmançıları F. Həsənov, E. Əhmədova, O. Orucov, O. Rəhimov, A. Orucov, N.İsmayılova, N. Cəfərov, C.Məmmədov, T.İmanquliyev də onunla bir sırada idilər. Onlar küçələrə toplaşmış adamların alqış sədaları altında məşəli bir-birinə ötürərək şəhərin Heydər Əliyev parkına doğru irəliləyirlər. Onlar keçdikləri küçələr boyu Olimpiya məşəlinin yaratdığı sevinc və fərəh hissi hamının ürəyini coşdurur.

İlk Avropa oyunlarının məşəli idmançılarımızın əlində Ağstafanın bir neçə küçəsindən keçərək Heydər Əliyev parkındakı mərkəzi meydana gətirilir. Adlı-sanlı idmançı Nemət İbrahimli meydanın səhnəsinə qalxaraq Olimpiya məşəlini alovlandırır. Hər tərəfə ağstafalıların gur alqış sədaları yayılır. Bu gurultulu alqışlar altında "Atəşgah"dan gələn alov məşəlindən yandırılan çıraq Avropa Oyunları qurtaranadək saxlanılmaq üçün Heydər Əliyev Mərkəzinə gətirildi.

Rəsmi tədbir başa çatdıqdan sonra mərkəzi meydan rəngarəng konsert proqramı ilə mərasim iştirakçılarının görüşünə gəlmiş mədəniyyət və incəsənət işçilərinin çıxışları ilə başlanmışdır. Ayrı-ayrı musiqi kollektivləri, rayon aşıqları, müğənnilər və gənc rəqs həvəskarları bu möhtəşəm bayram münasibətilə öz istedadlarını nümayiş etdirmiş, mərasim iştirakçılarının sevincinə xoş ovqat qatmışlar. Bir neçə saat davam edən məşəlyandırma mərasiminin sonunda atəşfəşanlıq olmuşdur. Dünyada ilk dəfə Bakıda keçirilən ilk I Avropa Oyunlarına böyük uğurlar diləyən rayon sakinləri üzlərində sevinc, qəlblərində sonsuz fərəh hissi və unudulmaz təəssüratlarla mərkəzi meydanı tərk edirdilər.





# Kənd sakinləri ilə görüş



Rayon icra hakimiyyətinin rəh-ər işçilərinin şəhər, qəsəbə, kənd akinləri ilə yaşayış məntəqələrin-ə görüşlər keçirməsi, vətəndaşla-n arzu və təkliflərini öyrənməsi, rizə və şikayətlərinə yerində ba-ılması artıq bir neçə ildir ki, ənənə əklini almışdır.

İctimaiyyət tərəfindən səmimi arşılanan və yüksək qiymətləndi-lən bu ənənə bu gün də uğurla avam etdirilir.

Bu günlər həmin ənənəyə uyğ-n olaraq rayonun Gürcüstanla sərhəd bölgəsində yerləşən Sadıx-lı, Muğanlı və Böyük-Kəsik yaşayış məntəqələrində ictimaiyyətlə növ-bəti görüş keçirilmişdir. Görüşdə iştirak edən kənd sakinləri belə tədbirlərin keçirilməsini onlara gö-stərilən diqqət və qayğı kimi qiy-mətləndirmiş və buna görə rayon rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər. Görüş iştirakçıları da-ha sonra çıxış edərək onları nara-hat edən problem və çətinliklər ba-rədə məlumat vermiş, ailə, məişət çətinliklərindən danışmış və bu çə-tinliklərin aradan qaldırılmasında onlara köməklik göstərilməsini xa-hiş etmişlər.

Böyük-Kəsik kənd sakini Dilarə Əliyeva öz çıxışında xəstə olduğu-nu bildirdi və maliyyə çətinliyi üzündən müalicə olunmasında problem yarandığını göstərdi. O, xəstəliyinin müalicə olunmasında ona köməklik göstərilməsini xahiş etdi.

Kənd sakinləri Aydın Qurba-nov, Yusif Yusifov isə kənd məktə-binin qəzalı vəziyyətdə olduğunu göstərdilər və kənddə yeni məktəb binasının inşa olunmasının, kənd qəbiristanlığının ətrafına dəmir to-run çəkilməsinin vacibliyini qeyd etdilər.

Muğanlı kənd sakinləri Fəxrəd-din Səfiyev, Eldar Allahverdiyev ic ra nümayəndəliyinin yaxınlığındakı subartezian quyusunun, kəndarası yolların təmir edilməsində onlara köməklik göstərilməsini xahiş etdi-lər.

Sadıxlı kənd sakinləri Tahir Musayev, Rəcəb Heydərov kənd-də yeni məktəb binasının inşa olunmasını, kəndə təbii qazın veril-məsi işinin sürətləndirilməsini, kənd sakini Badisəfa Hüseynova isə ona həyətyanı torpaq sahəsi-nin verilməsini xahiş etdilər.

Rayon icra hakimiyyətinin baş-çısı Məhərrəm Quliyev hər üç kənddə keçirilən görüşdə çıxış edərək kənd sakinləri tərəfindən qaldırılan problemlərə, edilən təkli-flərə, xahişlərə öz münasibətini bil-dirdi və həmin məsələlərin həll edilməsi üçün müvafiq idarə, müəssisə rəhbərlərinə, rayon icra hakimiyyətinin işçilərinə tapşırıqlar verdi.

Görüşdə Prezident Administra-siyasının məsul işçisi Əlibaba Əliy-ev iştirak etmişdir.

# "İlham Əliyev zirvə"sinə yürüş

Azərbaycan Respublikası Mə-əniyyət və Turizm Nazirliyi və Ağ-tafa rayon İcra Hakimiyyətinin əşkilatçılığı ilə birgə rayonun Qı-aq Kəsəmən kənd orta məktəbi-in yuxarı sinif şagirdlərinin qoruq ərazisində ən hündür nöqtə olan li baş komandanın şərəfinə ad-andırılmış "İlham Əliyev zirvə"sinə ürüş təşkil edilmişdir. Tədbirdə MEA-nın Arxeologiya və Etno-rafiya institutunun aparıcı elmi iş-çisi tarix üzrə fəlsəfə doktoru Man-sur Mansurov və Memarlıq və İnc-əsənət institutunun aparıcı elmi iş-çisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İmaş Hacıyev də iştirak etmişdir.

Tədbirdə tarixi abidələrimiz haqqında verilən geniş məlumatlar şagirdlərdə zəngin təəssürat ya-ratmışdır. Tədbir "İlham Əliyev zir-və"sinə yürüşlə yekunlaşmışdır.



# Dəyirmi masa

Bu günlər Rayon Məşğulluq Mərkəzində "Azərbaycan Respub-kasının Məşğulluq Strategiyasının əyata keçirilməsinə sosial tərəf-aşların rolu" mövzusunda dəyirmi masa keçirilmişdir.

Dəyirmi masada "Məşğulluq Strategiyasının həyata keçirilməsi zrə 2011-2015-ci illər üçün Döv-ət Proqramı"nda 2011-2015-ci illər ərzində Məşğulluq Mərkəzi tərəfin-ən işsizlər üçün yeni məsləhət idmətlərinin göstərilməsi məqsə-ilə əmək yarmarkalarının, dəyirmi masaların keçirilməsi, işsiz və axtaran şəxslərin əmək bazarına daxil olmaları üçün köməkliyin gö-stərilməsi, o cümlədən əlillərin müvafiq iş yerləri ilə təmin edilmə-si məqsədilə boş iş yerləri (vakan-siyalar) haqqında vahid şəbəkə-nin, məsləhət xidməti guşələrinin yaradılması, əlillər üçün münasib ixtisaslaşdırılmış istehsal sahələri-nin yaradılması barədə görülmüş işlər, biznesin təşkili və sahibkarlıq fəaliyyəti üzrə maarifləndirmə işi-nin aparılması məqsədilə illik pe-şə-ixtisas təhsili müəssisələrdə və təlim məktəblərində müvafiq təlim-lərin keçirilməsi, orta məktəblərin yuxarı sinif şagirdlərinin peşə seçi-mində köməklik göstərilməsi üçün peşəyönümlü tədbirlərin keçiril-məsi, qadınların sahibkarlıq fəa-liyyətinin dəstəklənməsi, işaxtaran qadınların peşə hazırlığı məsələlə-ri müzakirə olundu.

Tədbirdə çıxış edənlər müza-kirə edilən məsələ ilə əlaqədar öz fikirlərini bildirmiş, bu sahədə aparılan işlərin daha da təkmilləş-dirilməsi üçün təkliflər irəli sürmüşlər.

Dəyirmi masanın işinə Rayon Məşğulluq Mərkəzinin direktoru M.Mansurov yekun vurmuş, gələc-ək fəaliyyətlərində irəli sürülən tə-klifləri nəzərə alacaqlarını bildirmiş və iclasda iştirak edənlərə öz tə-şəkkürünü çatdırmış, onların şəx-sində bütün işə götürənləri səmimi əməkdaşlıq etməyə dəvət etmiş-dir.

*Bu günlər Azərbaycan Respublikasının Dövlət Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin müavini Siyavuş Heydərovla rayonun idarə, müəssisə rəhbərlərinin, ziyalıların ictimaiyyət nümayəndələrinin görüşü keçirilmişdir. Görüşdə Siyavuş Heydərov çıxış edərək din sahəsində respublikada həyata keçirilən tədbirlərdən məlumat vermiş, dövlət siyasətinin bu sahədə əsas istiqamətlərindən danışmışdır.*

# Dini maarifləndirmə işi gücləndirilməlidir

Natiq ölkəmizdə dini sa-bitliyin qorunub saxlanılması və dini maarifləndirmə istiqa-mətində komitə tərəfindən görülən işlər barədə geniş məlumat vermişdir. O, qeyd etmişdir ki, respublikanın bütün bölgələrində, eləcə də qərb rayonlarında dini icma-larla aparılan iş geniş təhlil olunmuş, radikal tədbirlərin bu bölgədə fəaliyyətinin qar-şısının alınmasında Rayon ic-ra hakimiyyəti aparatı işçiləri-nin fəaliyyətini xüsusilə qeyd etmişdi.

S. Heydərov dini maarif-ləndirmə sahəsində görülməsi zəruri olan daha vacib məsələlərə toxunaraq bu işdə din xadimlərinin üzə-rinə düşən işlərdən də bəhs etmişdi. Görüşdə dini qurum-larla iş üzrə Dövlət Komitəsi-nin Gəncə şəhəri və Tovuz-Ağstafa-Qazax bölgəsi üzrə şöbə müdirləri və məsul işçi-ləri də iştirak etmişlər.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev görüşdə iştirak etmiş və ge-niş nitq söyləmişdi. O, ölkə-mizin sosial-iqtisadi inkişafın-da əldə olunan uğurlu nəticə-lərdən, eləcə də din sahəsin-də həyata keçirilən dövlət siyasəti sahəsində Ağstafa rayonunda görülmüş işlər-dən danışmışdır. O, bu sahə-də əldə olunan uğurlarla ya-naşı bəzi nöqsanların mövc-udluğunu qeyd etmiş və hə-min nöqsanların aradan qal-dırılması üçün əlavə tədbirlə-rin görülməsinin vacibliyini qeyd etmişdir.

## Etibarsız sayılır

Qıraq Kəsəmən kənd sakini Tatarov Fərman Qurban oğlunun adına olan 113 nömrəli "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

Soyuqbulaq kənd sakini Karzikov Valeri Fodosoviçin adına olan JN-0161 nömrəli (kod 50207057) Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## ELAN

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsi haqqında" 28 dekabr 2013-cü il tarixli 357 nömrəli qərarına uyğun olaraq 2015-ci ilin iyun ayında Ağstafa rayonunda siyahıyaalınma keçiriləcəkdir.

***Ağstafa Rayon Statistika İdarəsi***

BAŞ REDAKTOR:

İBRAHİM ƏLİYEV

Həmtəsisçi:
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

*Redaksiya heyəti*

*L.Eyyubova, K.Abbasov, V.Əkbərov, K.Rzayev, İ.Mustafayev, N.Mehdixanlı, F.Vəliyev, A.Tağızadə*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000*